## Ordu quruculuğu haqqında

“Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir.”

***Andiçmə mərasimində nitqindən***
***(31 oktyabr 2003-cü il)***

***

“Cəmşid Naxçıvanski adına həmin məktəb bu gün də yaşayır, Azərbaycan ordusu üçün peşəkar kadrlar hazırlayır.”

***“Heydər Əliyev Fondu”nun təntənəli açılış mərasimində nitqindən***
***(10 may 2004-cü il)***

***

"Bu gün Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Azərbaycanın iqtisadi potensialı gücləndikcə, ölkəmiz zəngin dövlətə çevriləndən sonra, əlbəttə, ordu potensialımız da çox güclənəcək və bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək".

***“Heydər Əliyev Fondu”nun təntənəli açılış mərasimində nitqindən***
***(10 may 2004-cü il)***

***

“Əgər 1993-cü ilə qədər bizdə ordu yox idisə, indi Silahlı Qüvvələrimiz müasir standartlara cavab verir və qarşıda duran bütün vəzifələri yerinə yetirməyə qadirdir. Biz çalışacağıq ki, ordumuzu daha da gücləndirək, peşəkarlığını daha da artıraq.”

***Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən***
***(14 may 2004-cü il)***

***

“Ordu quruculuğunda böyük addımlar atıldı. 1993-cü ilə qədər orduda vəziyyət çox ağır idi, demək olar ki, Azərbaycanda ordu yox idi, ayrı-ayrı birləşmələr müstəqil şəkildə fəaliyyət göstərirdilər. Bu gün Azərbaycanın ordusu ən yüksək standartlara cavab verir, peşəkar orduya çevrilibdir və qarşıda duran vəzifələri həll etməyə qadir bir ordudur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində addımlar atılmışdır. Atəşkəs əldə olunmuşdur və bu bizə imkan verdi ki, sakit şəraitdə ölkəmizi inkişaf etdirək.”

***28 May - Respublika günü münasibətilə rəsmi qəbulda nitqindən***
***(27 may 2004-cü il)***

***

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanm ən ağrılı məsələsidir, Azərbaycan üçün həll olunmalı ən mühüm problemdir. Biz çalışırıq bunu həll edək. Amma, eyni zamanda, ordumuzu da gücləndiririk. Orduya lazımi kömək, dəstək göstəririk. Azərbaycanın iqtisadi potensialı gücləndikcə, ordumuz da güclənəcəkdir".

***Qazax şəhərindəki Heydər parkında sakinlərlə görüşündəki nitqindən***
***(17 iyun 2004-cü il)***

***

“...orduda qulluq edən şəxslərin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində çox önəmli addımlar atılacaqdır.”

***Gəncədəki “N” hərbi hissəsinin şəxsi heyəti ilə görüşdə nitqindən***
***(18 iyun 2004-cü il)***

***

“...məhz Heydər Əliyevin təşəbbüsü ilə Bakıda Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb yaradılmışdı.... Bu gün ordumuzda xidmət edən zabitlərin bir çoxu Naxçıvanski adına məktəbin məzunlarıdır.”

***Gəncədəki “N” hərbi hissəsinin şəxsi heyəti ilə görüşdə nitqindən***
***(18 iyun 2004-cü il)***

***

“Gənclərimiz, əsgərlərimiz vətənpərvərlik ruhunda tərbiyə edilməlidirlər.”

***Gəncədəki “N” hərbi hissəsinin şəxsi heyəti ilə görüşdə nitqindən***
***(18 iyun 2004-cü il)***

***

“1994-cü ildən Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramında fəal iştirak edir. NATO ilə bizim ikitərəfli əlaqələrimiz çox uğurla inkişaf edir.”

***NATO-nun İstanbul sammitində çıxışından***
***(28 iyun 2004-cü il)***

***

“...Azərbaycan antiterror koalisiyasına qoşulan ölkələrin ilk cərgəsində durdu. Bu gün bizim ölkəmiz terrora qarşı qlobal savaşa öz əməli töhfəsini verməkdədir.

Erməni terroruna məruz qalmış bir ölkə kimi (32 terror aktı nəticəsində 2 mindən çox adam həlak olmuşdur), biz yaxşı anlayırıq ki, yalnız beynəlxalq ictimaiyyətin ümumi səyləri ilə bu bəlaya qarşı səmərəli mübarizə aparmaq mümkündür.”

***NATO-nun İstanbul sammitində çıxışından***
***(28 iyun 2004-cü il)***

***

"Azərbaycanda ordu quruculuğunda böyük işlər görülür. Bu istiqamətdə də Heydər Əliyevin siyasəti davam etdirilir, ordumuz güclənir və bildiyiniz kimi, ölkə iqtisadiyyatı uğurla inkişaf etdiyinə görə, büdcədə əlavə vəsait yaranmışdır və bu vəsaitin üçdə bir hissəsi ordu quruculuğuna sərf olunacaqdır. Bu bizim prioritet məsələmizdir və Azərbaycanda güclü ordu var. Bu ordu daha da güclü olmalıdır və olacaqdır".

***"AZBENTONİT" MMC-nin açılışı mərasimində nitqindən***
***(14 iyul 2004-cü il)***

***

“Sərhəd Qoşunlarının formalaşdırılmasında Heydər Əliyevin rolu müstəsna olmuşdur. Məhz onun rəhbərliyi altında Azərbaycanda Sərhəd Qoşunları formalaşdı, gücləndi və bu gün ölkəmizin milli maraqlarını çox ləyaqətlə qoruyurlar. Xalqımızın ümummilli liderinin qərarı ilə Sərhəd Qoşunları müstəqil qurum kimi fəaliyyətə başladıqdan sonra bu istiqamətdə çox böyük müsbət dəyişikliklər baş vermişdir. Mən çox şadam ki, bu gün Azərbaycanın Sərhəd Qoşunları bütün yüksək standartlara cavab verir və ölkəmizin sərhədləri etibarlı şəkildə qorunur.”

***Xudat sərhəd dəstəsinin şəxsi heyəti ilə görüşündə nitqindən***
***(21 iyul 2004-cü il)***

***

“Sərhəd Qoşunlarının inkişafına, onun infrastrukturunun yaradılmasına və güclənməsinə vəsait ayrılır. Bu vəsaitdən səmərəli istifadə olunur və beləliklə, Azərbaycanda yeni sərhəd dəstələri, zastavalar yaradılır. Bu proses davam etdiriləcəkdir.”

***Xudat sərhəd dəstəsinin şəxsi heyəti ilə görüşündə nitqindən***
***(21 iyul 2004-cü il)***

***

“Bilirsiniz ki, mənim bu il ərzində bölgələrə etdiyim səfərlər çərçivəsində hərbi hissələrə də baş çəkirdim, orada olan vəziyyətlə şəxsən maraqlanırdım, öyrənirdim, görürdüm. Görürdüm ki, bizim ordumuz günü-gündən güclənir. Bu məsələyə çox böyük diqqət göstəririk, orduya ayrılan xərclər artır. 2004-cü ilin büdcəsində artım nəzərdə tutulmuşdu

və biz ilin ortalarında büdcəyə dəyişiklik edərək, orduya ayrılan xərclərin həcmini artırdıq. 2005-ci ilin büdcəsində artım təxminən 30 faiz civarında nəzərdə tutulubdur və biz ildən-ilə orduya ayrılan xərcləri artıracağıq."

***Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl Bayramı münasibətilə xalqa müraciətindən (31 dekabr 2004-cü il)***

***

"Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda Daxili Qoşunlar yarandı."

***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasının 13-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitqindən (12 mart 2005-ci il)***

***

"Son illər ordu quruculuğu istiqamətində böyük işlər görülübdür. Ordunun maddi-texniki bazası gücləndirilib, lazım olan yeni texnika və avadanlıq alınıbdır. Azərbaycanın iqtisadi potensialı gücləndikcə, təbii ki, bizim hərbi potensialımız da güclənəcək və güclənməlidir. Təsadüfi deyil ki, 2005-ci ilin büdcəsində orduya ayrılan xərclərin həcmi təxminən 40 faiz səviyyəsində qaldırılıbdır."

***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaranmasının 13-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitqindən (12 mart 2005-ci il)***

***

"..milli təhlükəsizlik orqanlarının Azərbaycanda çox böyük funksiyaları vardır. Ölkəmizin keçid dövrünü yaşadığını, Azərbaycanın gənc müstəqil dövlət olduğunu və hər bir gənc dövlət kimi Azərbaycanın da çoxlu problemləri olduğunu, ölkəmizin coğrafi-siyasi vəziyyətini, təbii ehtiyatlarını və ərazimizdən keçən neft-qaz kəmərlərini, nəhəng enerji layihələrinin Azərbaycanda həyata keçirilməsini nəzərə alsaq görərik ki, müxtəlif dairələrin diqqəti Azərbaycana yönəlmişdir. Biz buna hazır olmalıyıq."

***Milli Təhlükəsizlik Nazirliyinin bir qrup əməkdaşına ölkəmizin yüksək mükafatlarının təqdim olunma mərasimində giriş nitqindən (17 mart 2005-ci il)***

***

"İkinci Dünya müharibəsi bəşər tarixində ən dəhşətli müharibə idi, ən qanlı müharibə idi. Azərbaycan Sovet İttifaqı tərkibində bu müharibədə fəal iştirak etmişdir. 700 minə yaxın Azərbaycan vətəndaşı müharibədə iştirak etmiş, qəhrəmancasına vuruşmuş, onların yarısı geri dönməmiş, həlak olmuşdur. Bu, böyük qəhrəmanlıqdır. Heç kim bu qəhrəmanlığı unutmamalıdır."

***Heydər Əliyev Fondunda Böyük Vətən müharibəsində Qələbənin 60 illik yubileyinə həsr olunmuş mərasimdə nitqindən (9 may 2005-ci il)***

***

"Ordunun bütün məsələləri müntəzəm qaydada həll edilir. Mən bunu daim diqqət mərkəzində saxlayıram. Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi bu, mənim borcumdur. Mən bundan sonra da orduya böyük diqqətlə, böyük qayğı ilə yanaşacağam".

***Heydər Əliyev adına Azərbaycan Ati Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə nitqindən (25 iyun 2005-ci il)***

***

"Hər bir ölkə üçün onun ordusu çox vacib bir atributdur, çox önəmli bir rəmzdir. O cümlədən Azərbaycan üçün. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan hələ də müharibə şəraitində yaşayır, orduya diqqət daim yüksək səviyyədə olmalıdır. 2005-ci ilin büdcəsi 2004-cü ilin büdcəsi ilə müqayisədə 35 faiz artıbdır. O cümlədən ordu quruculuğu və ordunun potensialının güclənməsi bizim üçün prioritet məsələdir və buna da böyük diqqət göstəririk".

***Heydər Əliyev adına Azərbaycan Ati Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə nitqindən (25 iyun 2005-ci il)***

***

“2003-cü ildə Azərbaycanda müdafiə xərclərinə 135 milyon dollar, 2004-cü ildə 175 milyon dollar sərf olunubdur. 2005-ci ildə isə 300 milyon dollar ayrılmışdır. Müdafiə xərcləri bir ildə 70 faiz artıbdır. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik.”

***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə nitqindən (27 iyun 2005-ci il)***

***

"Bizdə əsil müstəqillik var, öz siyasətimizi yalnız və yalnız xalqın iradəsinə, istəyinə əsaslanaraq həyata keçiririk. Heç kim bizə təsir edə bilməz. Ona görə gərək daha da güclənək. Güclənək ki, güclü ordu yaradaq. Güclü ordu yaradaq ki, torpaqlarımızı azad edək.

Bu il orduya xərclər təxminən 2 dəfə də artıbdır. Gələn il, lazım olarsa, yenə də 2 dəfə artırarıq ki, bütün məsələləri öz istədiyimiz kimi həll edək".

***Göyçay rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqindən (8 iyul 2005-ci il)***

***

“Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan tarixində, o cümlədən ordu quruculuğunda böyük xidmətləri olmuşdur. Azərbaycanda hərbi kadr potensialının yaranmasında onun müstəsna xidmətləri vardır. Sərhəd qoşunlarına da daim böyük diqqət göstərirdi və bu diqqət bu gün də davam edir. Məhz 2002-ci ildə Heydər Əliyevin qərarı ilə Sərhəd Qoşunları Milli Təhlükəsizlik Nazirliyindən ayrılaraq, müstəqil Dövlət Sərhəd Xidməti yarandı.”

***Dövlət Sərhəd Xidmətinin hərbi hissələrinə döyüş bayraqlarının verilməsinə həsr olunmuş təntənəli mərasimdə nitqindən (16 avqust 2005-ci il)***

***

“Beynəlxalq terrorizmlə mübarizə bu gün dünya ölkələrini birləşdirən bir amildir. Azərbaycan öz tərəfindən beynəlxalq terrorizmlə mübarizəyə töhfəsini verir və biz bundan sonra da bu siyasəti aparacağıq.”

***Dövlət Sərhəd Xidmətinin hərbi hissələrinə döyüş bayraqlarının verilməsinə həsr olunmuş təntənəli mərasimdə nitqindən (16 avqust 2005-ci il)***

***

"Sərhəd hər bir dövlət üçün onun müstəqilliyini təcəssüm etdirən çox önəmli əlamətdir. Sərhəd müstəqillik deməkdir".

***Dövlət Sərhəd Xidmətinin hərbi hissələrinə döyüş bayraqlarının verilməsinə həsr olunmuş təntənəli mərasimdə nitqindən (16 avqust 2005-ci il)***

***

"Azərbaycan terrora məruz qalmış bir ölkədir. 1990-cı illərin əvvəllərindən erməni terror təşkilatları tərəfindən Azərbaycanda 30-dan yuxarı terror aktları həyata keçirilmiş və 2 mindən çox günahsız insan həlak olmuşdur."

***Dövlət Sərhəd Xidmətinin hərbi hissələrinə döyüş bayraqlarının verilməsinə həsr olunmuş təntənəli mərasimdə nitqindən (16 avqust 2005-ci il)***

***

"...əgər biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini ədalətli, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll etmək istəyiriksə, danışıqlarla bərabər, Azərbaycanda ordu quruculuğuna böyük diqqət göstərilməlidir".

***Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti ilə keçirilən görüşdə nitqindən (5 oktyabr 2005-ci il)***

***

"Xüsusi Dövlət Mühafizə Xidmətinin və Milli Qvardiyanın formalaşmasında və möhkəmlənməsində Heydər Əliyevin çox böyük rolu olmuşdur. Məhz 1990-cı illərin ortalarından başlayaraq, həm maddi-texniki baza gücləndi, eyni zamanda, qvardiyaçıların hazırlıq səviyyəsi yüksəldi. Bu gün Azərbaycanda qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetirən çox güclü Milli Qvardiya vardır."

***Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti ilə keçirilən görüşdə nitqindən (5 oktyabr 2005-ci il)***

***

"İldən-ilə artan hərbi büdcəmiz bizə imkan verir ki, ordu potensialımızı ən yüksək səviyyədə saxlaya bilək. 2004-cü ildə ordunun büdcəsi 175 milyon dollar, 2005-ci ildə 300 milyon dollar olmuşdur. 2006-cı ildə isə 600 milyon dollara çatacaqdır. Bu, orduya, ordu quruculuğuna göstərilən qayğının əyani sübutudur."

***Xüsusi Dövlət Mühafizə Xidmətinin şəxsi heyəti ilə keçirilən görüşdə nitqindən (5 oktyabr 2005-ci il)***

***

"Bu gün müasir avadanlıqla təchiz olunmuş Sərhəd Qoşunları Azərbaycanı bütün təhlükələrdən müdafiə etməyə qadirdir. Biz sərhədlərdə, ölkə daxilində nələr baş verdiyini bilirik."

***Zaqatala sərhəd dəstəsinin şəxsi heyəti ilə görüşdə nitqindən (12 aprel 2006-cı il)***

***

"Güclü ordu güclü dövlət deməkdir. Bizim məqsədimiz güclü ordu yaratmaqdır. Biz bunu edirik, yaradırıq və daha da möhkəm orduya malik olmalıyıq."

***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə nitqindən (23 iyun 2006-cı il)***

***

"Azərbaycan artıq o ölkədir ki, öz torpağının işğalına dözməyəcəkdir. Azərbaycan artıq o ölkədir ki, öz iqtisadi, siyasi, hərbi potensialından istifadə edib, istədiyinə nail olacaqdır.

Bəzən Azərbaycanın ordu quruculuğu prosesi kimdəsə narahatlıq doğurur. Doğurmamalıdır, bu, bizim suveren hüququmuzdur. Biz neçə ildir ki, bu işğala dözürük. Bizim ən böyük güzəştimiz sülh danışıqlarına sadiqliyimizdir. Ancaq biz bütün bu imkanlardan istifadə edib yeni vəziyyət yaratmalıyıq."

***Milli Məclisinin 2006-cı il payız sessiyasında nitqindən (2 oktyabr 2006-cı il)***

***

"...hərbi potensialın möhkəmlənməsi avtomatik olaraq müharibənin başlamasına gətirib çıxarmır. Bu, ən son variantdır. Biz buna hazır olmalıyıq".

***Milli Məclisinin 2006-cı il payız sessiyasında nitqindən***
***(2 oktyabr 2006-cı il)***

***

"Ordumuzun inkişafı üçün, hərbçilərin rahat yaşaması üçün onların məişət problemləri, sosial problemləri də həll olunmalıdır. Bu məqsədlə hərbçilərin əmək haqları mütəmadi qaydada artırılır, onlar mükafatlandırılır."

***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin***
***növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə nitqindən***
***(22 iyun 2007-ci il)***

***

"Azərbaycanda eyni zamanda ordumuz üçün lazım olan avadanlığın, silah-sursatın istehsalı üçün də böyük işlər görülür. Azərbaycanda bu yaxınlarda yaradılmış Müdafiə Sənayesi Nazirliyinin əsas məqsədi ondan ibarətdir. Düzdür, biz orduya böyük vəsait ayırırıq və heç kim üçün sirr deyil ki, böyük həcmdə silah-sursat, texnika, döyüş təyyarələri alırıq və bunu, bu siyasəti davam etdirəcəyik."

***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin***
***növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə nitqindən***
***(22 iyun 2007-ci il)***

***

"Biz istəmirik ki, məsələni hərbi yolla həll edək. Ancaq buna hazır olmalıyıq. Bizim siyasətimiz açıqdır, heç nəyi gizlətmirik. Biz bəyan edirik ki, bəli, danışıqlara sadiqik. Amma bunun müəyyən müddəti var. Bu danışıqlar əbədi aparıla bilməz."

***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin***
***növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə nitqindən***
***(22 iyun 2007-ci il)***

***

"Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir Azərbaycanın inkişaf dövrü bütün sahələrdə görünməkdədir. Heydər Əliyevin qərarı ilə Sərhəd Xidməti ayrıca müstəqil xidmət kimi formalaşdı və o gündən bu günə qədər çox böyük və şərəfli yol keçdi. İndi yeni sərhəd zastavaları tikilir, müasir infrastruktur yaradılır, sərhədçilərin peşəkarlığı artır, onların hazırlanması üçün böyük tədbirlər görülür.

Bildiyiniz kimi, bu yaxınlarda sərhədçilərin Akademiyasının yaradılması üçün müvafiq sərəncamlar verilmişdir. Bütün bunlar onu göstərir ki, Azərbaycan iqtisadi imkanlarından istifadə edib öz sərhədlərini daha da möhkəmləndirir."

***Dövlət Sərhəd Xidmətinin "Sərhədçi" istirahət mərkəzinin açılışı mərasimində çıxışından***
***(17 avqust 2007-ci il)***

***

"Ordu xərcləri ölkənin büdcə xərcləri içərisində birinci yerdədir və müharibə şəraitində yaşayan ölkə üçün bu, belə də olmalıdır."

***Füzuli rayonunun Zobucuq qəsəbəsində orta məktəb binasının açılış mərasimində nitqindən***
***(18 aprel 2008-ci il)***

***

"Hazırda Azərbaycanın müdafiə xərcləri təxminən iki milyard dollara bərabərdir, bu isə Ermənistanın illik büdcəsi ilə müqayisə edilə bilər."

***Taras Şevçenko adına Kiyev Milli Universitetinin fəxri doktoru diplomunu təqdimetmə mərasimində nitqindən (22 may 2008-ci il)***

***

"Azərbaycan müharibə şəraitində yaşayır və müharibə hələ bitməyibdir. Müharibənin birinci mərhələsi başa çatıbdır və müvəqqəti olaraq atəşkəs rejimi mövcuddur. Bu atəşkəs qorunub saxlanılır. Ancaq o demək deyil ki, müharibə başa çatıbdır. Biz hər an öz doğma torpaqlarımızı azad etməyə hazır olmalıyıq və məhz bu məqsədlə biz güclü ordu yaradırıq. O ölkələrdə, hansı ki, onların torpaqları işğal olunmayıb, bəlkə də ordu quruculuğuna o qədər də diqqət göstərilmir. Biz isə bu işğaldan 10 ildən çoxdur ki, əziyyət çəkirik. Azərbaycan öz torpaqlarının bir hissəsini müvəqqəti olaraq itiribdir. Belə olan halda, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. Biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən hərbi yolla azad edək və bu məqsədlə nə lazımdır Azərbaycan dövləti edir."

***Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi münasibətilə təntənəli hərbi paradda nitqindən (26 iyun 2008-ci il).***

***

"Peşəkarlıqla yanaşı, ordunun maddi-texniki bazası da möhkəmlənir. Bu istiqamətdə son illər ərzində böyük işlər görülübdür. Müqayisə üçün deyə bilərəm ki, 2003-cü ildə ölkəmizin hərbi xərcləri bugünkü hərbi xərclərdən ən azı on dəfə az idi. Bu gün ordu quruculuğu prosesi, eyni zamanda, maddi-texniki bazanın möhkəmlənməsi ilə tamamlanır. Azərbaycanın ümumi hərbi xərcləri son beş il ərzində 10 dəfədən çox artmışdır və bu gün 2 milyard dollardan da çoxdur. Biz bir müddət bundan əvvəl qarşıya məqsəd qoymuşduq ki, Azərbaycan Ordusunun maddi-texniki bazası möhkəmlənsin. Mən çox şadam ki, bu gün biz buna nail oluruq. Gələcəkdə daha da böyük işlər görüləcəkdir."

***Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi münasibətilə təntənəli hərbi paradda nitqindən (26 iyun 2008-ci il).***

***

"Biz qısa müddətdə silahlı qüvvələrin nəinki çox güclü maddi-texniki bazasını yaratmağa nail olmuşuq, həm də, ordunun döyüş qabiliyyətini, peşəkarlığını yüksəltmişik. Keçən il Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 90 illiyinə həsr edilmiş hərbi parad da, ümumən, xalq qarşısında hesabatımız idi ki, nə işlər görülmüşdür, bu vəsaitlər necə sərf edilmişdir, bu gün nəyimiz var. İndi Azərbaycan ordusu istənilən məsələləri həll etməyə, ilk növbədə, işğal olunmuş ərazilərin azad edilməsi vəzifəsini yerinə yetirməyə qadir olan çox güclü strukturdur. Biz qısa müddətdə Azərbaycanda əvvəllər heç vaxt mövcud olmamış hərbi sənaye kompleksi yaratmışıq. Biz bundan sonra da, artıq dediyim kimi, torpaqlarımız azad edilənə qədər bu məsələlərə böyük diqqət yetirəcəyik."

***"Rossiya" telekanalında "Formula vlasti" proqramına müsahibəsindən (14 fevral 2009-cu il)***

***

"Azərbaycan öz hərbi potensialını da gücləndirir. Bu, bizim suveren hüququmuzdur və biz bu hüquqdan istifadə edirik. Nəzərə alaq ki, Azərbaycan ordu quruculuğu prosesini daxili imkanları hesabına aparır. Təbii ki, bu, bizim daxili işimizdir. Azərbaycan Ordusu son illər ərzində böyük və uğurlu yol keçmişdir. Bu gün ordumuz qarşıda duran bütün vəzifələri icra etməyə qadirdir. Torpaqları işğaldan azad etmək üçün bütün imkanlarımız vardır. Həm döyüş qabiliyyəti, həm vətənpərvərlik ruhu, həm silah-sursat baxımından imkanlarımız genişlənir. Azərbaycanda müdafiə sənayesi artıq dörd ildir ki, fəaliyyət göstərir və bu istiqamətdə böyük uğurlar əldə etmişik. Bizim hərbi potensialımız gündən-günə artır və artacaqdır."

***Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və
Yeni il münasibətilə Azərbaycan xalqına təbrikindən
(31 dekabr 2009-cu il)***

***

"Azərbaycanda hərbi sənaye də çox sürətlə inkişaf edir. Bu sahəyə də böyük vəsait ayrılır, diqqət göstərilir. Son illər ərzində çoxsaylı zavodlar yaradılıbdır. Azərbaycanda ən müasir texnika istehsal olunur. Gələcəkdə bizim bu sahədə planlarımız çox genişdir və böyükdür. İstəyirik ki, bizə lazım olan hərbi sursat və texnika maksimum dərəcədə Azərbaycanda istehsal olunsun. Beləliklə, biz idxaldan da asılılığımızı azaldacağıq. Baxmayaraq ki, silah-sursatın alınması ilə əlaqədar qarşımızda heç bir problem yoxdur, bu proses davam edir və davam edəcəkdir."

***Müdafiə Nazirliyində ordu quruculuğu məsələlərinə həsr olunmuş müşavirədə çıxışından
(23 aprel 2010-cu il).***

***

"Orduda peşəkarlıq, döyüş qabiliyyəti artır, ruh yüksəkliyi vardır. Eyni zamanda, ordumuzun maddi-texniki bazası möhkəmlənir və son illərdə bu işlərdə çox böyük addımlar atılmışdır. Ordumuzun bütün tələbatını ödəmək üçün dövlət tərəfindən kifayət qədər vəsait ayrılır. Sadəcə bir rəqəmi demək kifayətdir ki, son bir neçə il ərzində, daha doğrusu, 7 il ərzində hərbi xərclərimiz 13 dəfədən çox artmışdır. Bu gün 2010-cu ilin bütün hərbi xərcləri Azərbaycanda 2 milyard 150 milyon dollara bərabərdir ki, bu da Ermənistanın bütün dövlət büdcəsindən çoxdur. Yəni, bir neçə il bundan əvvəl qarşıya məqsəd qoyulmuşdur ki, Azərbaycanın hərbi xərcləri Ermənistanın bütün xərclərindən çox olmalıdır. Artıq bu məqsəd reallaşıb. Biz bundan sonra da hərbi gücümüzü artıracağıq, ordumuz üçün lazım olan bütün silah-sursatı və texnikanı alacağıq.

Azərbaycanda hərbi təyinatlı məhsulların istehsalı istiqamətində əlavə addımlar da atılacaqdır. Son illərdə bu istiqamətə də çox böyük diqqət göstərilmişdir. Hazırda Azərbaycanda 21 hərbi müəssisə, hərbi zavod fəaliyyət göstərir, 30 istehsal sahəsi yaradılıbdır. Biz elə etməliyik ki, Azərbaycan Ordusu üçün, Silahlı Qüvvələr üçün lazım olan bütün texnika, silah-sursat Azərbaycanda istehsal edilsin. Biz bu istiqamətdə işimizi daha da gücləndirəcəyik. Bunu etmək üçün əlbəttə ki, ölkədə maliyyə resursları, iqtisadi güc olmalıdır və biz bu gücü yaradırıq."

***Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 92-ci ildönümü münasibətilə Müdafiə Nazirliyinin,
Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının birləşmə və
hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təliminin əsas mərhələsini izlədikdən sonra çıxışından
(24 iyun 2010-cu il)***

***

"Sərhədlərimizin qorunması təhlükəsizliyimizin təmin edilməsi deməkdir.

Təhlükəsizliyimizin təmin edilməsi üçün bütün tədbirlər görülür. Biz sərhədlərimizi böyük dərəcədə gücləndirməliyik və buna nail olmuşuq. Bu gün həm texniki vasitələr, həm mühəndis qurğuları, həm də avadanlıq baxımından Sərhəd Xidmətimiz ən yüksək səviyyədədir. Sərhəd Xidmətinin maddi-texniki bazasının yaxşılaşdırılması və möhkəmləndirilməsi üçün mütəmadi qaydada ardıcıl tədbirlər görülür, avadanlıq, silah-sursat, texnika alınır və təchizat baxımından bizdə heç bir problem yoxdur. Lazımi səviyyədə maliyyə vəsaiti də ayrılır ki, bütün işlər yüksək səviyyədə görülsün. Mən görürəm ki, ayrılan maliyyə vəsaitindən çox səmərəli şəkildə istifadə olunur. Sərhədçilər üçün, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün əməli işlər görülür, evlər tikilir, istirahət mərkəzləri, idman qurğuları yaradılır. Yəni bütün bunlar Sərhəd Xidmətinin inkişafına yönələn böyük addımlardır."

***Bakıda Dövlət Sərhəd Xidmətinin Akademiyasının açılışı mərasimində nitqindən
(11 avqust 2010-cu il)***

***

"...ordu quruculuğumuza da böyük diqqət göstəririk. Bəzi hallarda bu, bəzi xarici dairələri narahat edir. Hesab edirəm ki, narahatçılığa heç bir əsas yoxdur. Əgər məsələ öz həllini sülh yolu ilə taparsa əlbəttə ki, hərbi variantdan

söhbət gedə bilməz. Ancaq artıq 20 ildən çoxdur ki, Azərbaycan torpaqları işğal altındadır. Azərbaycan vətəndaşları bu işğaldan, etnik təmizləmə siyasətindən əziyyət çəkirlər. Bu gün güclənən Azərbaycan tam əmindir ki, bu məsələ istənilən yolla öz həllini tapa bilər.

Ordu quruculuğumuza göstərdiyimiz diqqət, hərbi xərclərin artırılması, yeni hərbi texnikanın Azərbaycanda istehsal olunması əlbəttə, məsələnin ədalətli həlli üçün hesab edirəm ki, əlavə imkanlar yaradacaqdır. Bu gün Azərbaycanda ən müasir döyüş texnikası istehsal olunur. Artan iqtisadi imkanlarımız, enerji layihələrinin icrası nəticəsində əldə ediləcək əlavə gəlirlər əlbəttə ki, Azərbaycanı bu cəhətdən daha da gücləndirəcəkdir.”

***Bakıda Novruz bayramı münasibətilə ümumxalq şənliyində nitqindən***
***(19 mart 2011-ci il).***

***

“Ölkəmizdə hərbi sənaye potensialı sürətlə inkişaf edir. Mən bu sahəni xüsusilə qeyd etmək istəyirəm. Çünki bu, həm sənaye sahəsidir, eyni zamanda, xüsusi bir sahədir. Burada hər iki məqsəd güdülür. Biz, ilk növbədə, Azərbaycanın hərbi potensialını daxili imkanlar hesabına gücləndirməliyik. Vaxtilə Müdafiə Sənayesi Nazirliyi məhz bu məqsədlə yaradılmışdır. Digər tərəfdən, bu, yeni bir sənaye sahəsidir. Minlərlə yeni iş yeri açılmışdır, yüksək maaşlar verilir və Azərbaycanda müasir hərbi sənaye məhsulları istehsal olunur. Hazırda Azərbaycanda 430 adda məhsul istehsal edilir. Məqsədimiz ondan ibarətdir ki, biz bu sahədəki işləri ən müasir texnologiyalar əsasında quraq.

Mən onların arasında pilotsuz təyyarələrin istehsalını xüsusi qeyd etmək istəyirəm. Bu, ən inkişaf etmiş ölkələrə xas olan istehsal sahələridir. Azərbaycan artıq öz imkanları ilə pilotsuz təyyarələrin ən yüksək səviyyədə istehsalına başlamışdır və bu, bizim hərbi gücümüzü böyük dərəcədə artıracaqdır.”

***Nazirlər Kabinetinin 2011-ci ilin birinci rübünün sosial-iqtisadi***
***inkişafının yekunlarına həsr olunmuş iclasında giriş nitqindən***
***(12 aprel 2011-ci il)***

***

“Bu gün Azərbaycan Ordusunun təchizatı, o cümlədən daxildə istehsal olunan məhsullar hesabına formalaşır. Azərbaycanda müxtəlif növ silahlar, sursatlar, hərbi texnika istehsal olunur və bu nailiyyətlər bu gün bu paradda göstəriləcəkdir. Patronlar, silahlar, mərmilər, tapançalar, avtomatlar, pulemyotlar, minaatanlar, snayper tüfəngləri, zirehli texnika, pilotsuz təyyarələr – bütün bunlar Azərbaycanda istehsal olunur. Azərbaycanda istehsal olunan hərbi texnika yüksək səviyyədədir. Beynəlxalq sərgilərdə nümayiş etdirilən Azərbaycan hərbi texnikası dünya miqyasında da böyük qiymətə malikdir.”

***Azərbaycanın müstəqilliyinin 20-ci və Silahlı Qüvvələrin 93-cü***
***ildönümləri münasibətilə təntənəli hərbi paradda nitqindən***
***(26 iyun 2011-ci il).***

***

“Bu gün Azərbaycan Ordusu çox yüksək səviyyədədir. Ordumuzda peşəkarlıq, döyüş qabiliyyəti artır, Silahlı Qüvvələrdə ruh yüksəkliyi vardır. Bütün bu məsələlər bizi çox sevindirir. Azərbaycanda Ordu quruculuğu prosesi bundan sonra da uğurla gedəcəkdir. Ordumuz ölkə qarşısında duran vəzifələri icra etmək üçün bütün imkanlara malikdir. Azərbaycanda ordunun maddi-texniki bazasının gücləndirilməsi işində böyük məsələlər öz həllini tapmışdır. Hərbçilərin sosial müdafiəsi məsələləri öz həllini tapır. Sosial məsələlərə gəldikdə, Azərbaycan dövləti bu məsələni daim diqqət mərkəzində saxlayır, hərbçilərin sosial-məişət problemləri öz həllini tapır, əməkhaqları qaldırılır. Dünən imzaladığım Sərəncama əsasən Müdafiə Nazirliyinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə maaşları müvafiq olaraq 25 və 10 faiz artırılmışdır.

Ordumuzda xidmət edənlərin əksəriyyəti gənclərdir. Mən çox şadam ki, gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alırlar. Gənclərimiz bizim ümidimizdir. Gələcəkdə ölkəmizi onlar idarə edəcəklər. Mən çox şadam ki, orduda xidmət edən gənclər Vətənə bağlı olan insanlardır.”

***Azərbaycanın müstəqilliyinin 20-ci və Silahlı Qüvvələrin 93-cü ildönümləri münasibətilə təntənəli hərbi paradda nitqindən (26 iyun 2011-ci il).***

***

"...bu gün Azərbaycan ordusu böyük imkanlara malikdir. Biz bölgədə ən güclü orduya malikik, maddi-texniki təchizat yüksək səviyyədədir, ən müasir silahlar, texnikalar, döyüş helikopterləri, döyüş təyyarələri, raketlər, artilleriya qurğuları, - hamısını sadalamaq çətindir, - alınır və bizimlə hərbi sahədə əməkdaşlıq edən ölkələrin coğrafiyası da genişlənir. Eyni zamanda, Azərbaycanda istehsal olunan hərbi məhsulların sayı və çeşidi artmaqdadır. Biz 600-ə yaxın çeşiddə hərbi məhsul istehsal edirik. Yəni, bu gün Azərbaycan ordusu böyük qüvvədir və biz bu qüvvədən lazım olan halda istifadə edə bilərik və edəcəyik."

***Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında giriş nitqindən (16 yanvar 2012-ci il).***

***

"Ulu öndər Heydər Əliyev bu məsələlərlə hələ 1970-ci illərdə məşğul olmuşdur. Onun təşəbbüsü ilə Naxçıvanski adına Hərbi Məktəbin yaradılması bizim o illərdəki tariximizdə çox önəmli hadisələrdən biri idi. Ulu öndər hələ o zaman yaxşı görürdü, yaxşı başa düşürdü ki, bizə yerli hərbi kadrların hazırlanması lazımdır - gün gələcək Azərbaycan müstəqil dövlətə çevriləcəkdir və müstəqil dövlətin güclü ordusu olmalıdır. Bu proses bu gün də davam etdirilir. Azərbaycanda hərbi kadrların hazırlanmasına böyük diqqət göstərilir. Mən çox şadam ki, hərbçilərimizin peşəkarlığı, döyüş qabiliyyəti ildən-ilə artır, ruh yüksəkliyi yüksək səviyyədədir. Gənclərimiz vətənpərvərlik ruhunda tərbiyə alırlar. Beləliklə, ölkə qarşısında duran əsas vəzifə - torpaqlarımızı işğalçılardan azad etmək üçün biz hazırıq və hazır olmalıyıq."

***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə nitqindən (25 iyun 2012-ci il)***

***

"Azərbaycanda ordu quruculuğu prosesi də ulu öndərin adı ilə bağlıdır. 1993-cü ilə qədər, əfsuslar olsun ki, Azərbaycanda nizami ordu yaradılmamışdır. Bunun nəticəsində torpaqlarımız işğal altına düşmüşdür.

1993-cü ildən ordu quruculuğu prosesi başlamışdır. Bu proses bu gün də davam etdirilir. Bu illər ərzində Azərbaycanda nizami ordu yaradılmışdır, ordu güclənmişdir. Azərbaycan Ordusu artıq nəinki bölgədə, dünya miqyasında güclü orduların sırasındadır. Ordumuzun maddi-texniki bazası böyük dərəcədə möhkəmləndirilmişdir. Hərbi xərclər ildən-ilə artır. Azərbaycanın dövlət büdcəsində hərbi xərclər birinci yerdədir. Bu da təbiidir. Bu, belə də olmalıdır. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıbdır. Atəşkəs rejimi vardır. Ancaq sülh müqaviləsi imzalanmayıb. Müharibə şəraitində yaşayan ölkədə birinci növbədə ordu məsələlərinə diqqət göstərilməlidir və Azərbaycanda bu, belədir."

***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin növbəti buraxılışına həsr olunmuş təntənəli mərasimdə nitqindən (25 iyun 2012-ci il)***

***

"Azərbaycan ilə NATO-ya üzv dövlətlər arasında olan münasibətlər çox geniş, proqnozlaşdırılan və dostluq xarakteri daşıyan münasibətlərdir. Bu isə öz növbəsində NATO ilə Azərbaycan arasında mövcud əlaqələri daha da gücləndirir.

Biz bir çox məsələlər üzərində çalışırıq. O məsələlərdən biri Əfqanıstandakı vəziyyətdir. İlk günlərdən Azərbaycan sülhməramlı əməliyyatlarda iştirak edib və beynəlxalq təhlükəsizliyə yardım qüvvələrinin apardığı əməliyyatlara töhfə verib. Əfqanıstandakı hərbçilərimizin sayını 2 dəfə artırmışıq. Biz yerləşdirmə, tranzit, logistika, o

cümlədən hava məkanından istifadə dəstəyi ilə töhfəmizi də veririk. Bu gün Əfqanıstana göndərilən qeyri-hərbi yüklərin 30 faizindən çox hissəsi Azərbaycan ərazisi ilə daşınır. Biz fəaliyyətimizi davam etdirməyə hazırıq."

***NATO-nun baş katibi Anders Foq Rasmussenlə birgə mətbuat konfransında bəyanatından***
***(7 sentyabr 2012-ci il)***

***

"XXI əsrdə müharibələr daha çox texnologiyalar, biliklər üzərində qurulacaqdır. Bu, zəmanənin tələbidir. Azərbaycanın son illər ərzində əldə etdiyi silahlar müasir silahlardır.

Yüksək dəqiqliyə və çox böyük məhvetmə gücünə malik olan silahlardır. Son illərdə yüzə yaxın döyüş və nəqliyyat helikopteri alınmışdır. Onlarla döyüş təyyarəsi, hava hücumuna qarşı ən müasir qurğular alınmışdır. Bu zirehli maşınlar, ən müasir tanklar, ən müasir artilleriya qurğuları düşmənin istənilən nöqtəsini məhv etməyə qadirdir. Bu proses davam etdirilir.

Növbəti illərdə də hərbi xərclər ümumi büdcəmizdə üstünlük təşkil edəcəkdir."

***Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 95-ci ildönümü***
***münasibətilə keçirilən təntənəli hərbi paradda nitqindən***
***(26 iyun 2013-cü il)***

***

"Mən həmişə deyirəm ki, güclü dövlətin güclü ordusu olmalıdır. Hesab edirəm ki, Azərbaycan qısa müddət ərzində güclü dövlətlərin sırasına daxil edilibdir. Biz indi böyük layihələri icra edirik, həm ölkəyə, həm başqa ölkələrə böyük investisiyalar qoyuruq. Bir daha demək istəyirəm ki, biz beynəlxalq müstəvidə çox böyük nüfuza malikik. Əlbəttə ki, Azərbaycan Ordusu bu gün nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır - həm hərbi potensialına, həm döyüş qabiliyyətinə, həm də təchizata görə. Əminəm ki, Azərbaycan gücləndikcə ordumuz da güclənəcəkdir. Ordumuz istənilən vəzifəni həll etməyə hazırdır, buna qadirdir. Mən Ali Baş Komandan kimi bundan sonra da ordu quruculuğuna, ordunun inkişafına öz dəstəyimi verəcəyəm."

***Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 95-ci ildönümü***
***münasibətilə keçirilən təntənəli hərbi paradda nitqindən***
***(26 iyun 2013-cü il)***

***

"Dağlıq Qarabağ məsələsinin ədalətli, beynəlxalq normalara uyğun şəkildə həll edilməsi üçün bizim hərbi gücümüz həlledici rol oynayacaqdır."

***Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və***
***2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda giriş nitqindən***
***(9 yanvar 2014-cü il)***

***

"Hərbi büdcə, döyüş hazırlığı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas rol oynayacaqdır."

***Bakıda Novruz bayramı münasibətilə ümumxalq şənliyində çıxışından***
***(19 mart 2014-cü il)***

***

"Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda əlahiddə ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir."

***Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən***
***(8 aprel 2014-cü il)***

***

"Azərbaycan Ordusu dünya miqyasında texniki təchizat baxımından güclü ordular sırasındadır. Ordu quruculuğunda, orduda gedən islahatlar bizim döyüş qabiliyyətimizi artırır, orduda nizam-intizam möhkəmlənir, struktur islahatları aparılır, təmas xəttində əlavə işlər görülür və görüləcəkdir."

***28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda nitqindən***
***(27 may 2014-cü il)***

***

"Azərbaycanda güclü ordu vardır. Ordunun potensialı gündən-günə möhkəmlənir, güclənir. Ordu quruculuğu bizim dövlət siyasətimizdir, prioritetdir və son illərdə bu istiqamətdə çox böyük işlər görülmüşdür. Ordumuz yeni texnika ilə təchiz edilir."

***Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimindən sonra çıxışından***
***(26 iyun 2014-cü il)***

***

"Azərbaycan müstəqil siyasət aparır. Azərbaycan güclənir, regionda güc mərkəzidir. Bizim iqtisadi gücümüz hərbi gücə çevrilibdir. Biz bundan sonra da öz hərbi imkanlarımızı artıracağıq, bundan sonra da danışıqlar masasında prinsipial mövqeyimizi gücləndirəcəyik. Bizim prinsipial mövqeyimizin əsas mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir, Azərbaycan Ordusudur, Azərbaycan əsgəridir. Mən əminəm ki, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu biz bu gün də edə bilərik."

***Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimindən sonra çıxışından***
***(26 iyun 2014-cü il)***

***

"Ordu quruculuğu prosesi uğurla gedir, orduda islahatlar dərinləşir, nizam-intizam artır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, gündən-günə artır. Ordu günündə və bu yaxınlarda cəbhə bölgəsində keçirilmiş təlimlər həm praktik nöqteyi-nəzərdən, eyni zamanda, gücümüzü nümayiş etdirmək nöqteyi-nəzərindən çox böyük əhəmiyyətə malik məsələlərdir."

***Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında giriş nitqindən***
***(10 iyul 2014-cü il)***

***

"Azərbaycan faşizm üzərində Qələbənin əldə edilməsinə çox böyük töhfələr verib. Azərbaycandan 700 minə yaxın insan müharibədə iştirak edib, onlardan 300 mini həlak olub. 123 nəfər ən yüksək ada – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilib. 170 min nəfər isə müxtəlif orden və medallarla təltif olunub. Bu, Azərbaycan xalqının qəhrəmanlığını təsdiq edən statistik göstəricilərdir."

***Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasının açılışında çıxışından***
***(7 may 2015-ci il)***

***

"Azərbaycan nefti, Azərbaycan neftçilərinin əməyi olmasaydı, müharibənin nəticələri tam fərqli ola bilərdi. O vaxt - müharibə illəri zamanı Sovet İttifaqında 110 milyon ton neft hasil edilmişdi. Ondan 75 milyon tonu Azərbaycan neftçiləri tərəfindən hasil edilmişdi. Təsadüfi deyil ki, alman faşizmi Bakını zəbt etmək üçün çox böyük səylər göstərmişdi. Çünki əgər Bakını zəbt etsəydilər, o zaman bütün Sovet İttifaqının əksər enerji resurslarına sahib çıxmış olacaqdılar və beləliklə, yanacaq qıtlığı ucbatından müharibənin nəticələri tam başqa ola bilərdi."

***Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasının açılışında çıxışından (7 may 2015-ci il)***

***

"Azərbaycanda ordu quruculuğu prosesi uğurla gedir. Bu, bizim üçün prioritet məsələdir. Ordumuz inkişaf edir, güclənir. Orduda nizam-intizam artır, aparılan islahatlar öz bəhrəsini verir. Ordumuzun döyüş qabiliyyəti artır, maddi-texniki təminat yaxşılaşır. Bildiyiniz kimi, Azərbaycanın dövlət büdcəsinin əsas xərcləri hərbi xərclərdir. Biz bundan sonra da hərbi xərclərimizi ən yüksək səviyyədə saxlayacağıq və ordunun bütün tələbatlarını ödəyəcəyik."

***Qaradağ rayonunda Hərbi Dəniz Qüvvələrinin yeni bazasının və "N" saylı hərbi hissənin açılışında çıxışından (25 iyun 2015-ci il)***

***

"Son illər ərzində Azərbaycan hərbi potensialını böyük dərəcədə artıra bilmişdir. Ölkəmizə ən müasir silah-sursat, texnika, avadanlıq gətirilir. Bu gün maddi-texniki təchizat və döyüş qabiliyyəti baxımından Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu gün əldə etdiyimiz silah və texnika bizə imkan verir ki, istənilən vəzifəni şərəflə yerinə yetirək. Bununla bərabər, təxminən 10 il bundan əvvəl mənim qərarımla Azərbaycanda hərbi sənaye kompleksi yaradılmağa başlamışdır. Bu gün Azərbaycanda minə yaxın adda hərbi təyinatlı məhsul istehsal edilir və bu da ordumuzun təchizatı üçün əvəzolunmaz haldır."

***Qaradağ rayonunda Hərbi Dəniz Qüvvələrinin yeni bazasının və "N" saylı hərbi hissənin açılışında çıxışından (25 iyun 2015-ci il)***

***

"Daim diqqət mərkəzində olan sahə ordu quruculuğudur. Biz bu sahəyə daim böyük diqqət göstəririk. Bu da təbiidir, çünki Azərbaycan müharibə şəraitində yaşayır, müharibə bitməyib və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dondurulmuş münaqişə deyil. Bunu artıq hamı görür, o cümlədən bu məsələ ilə məşğul olan vasitəçilər."

***Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən (12 oktyabr 2015-ci il)***

***

"Azərbaycan Türkiyədən ordumuza lazım olan silahları alır. Eyni zamanda, biz artıq bir neçə dəfədir ki, birgə hərbi təlimlər də keçirdik, həm Türkiyədə, həm Azərbaycanda. Bu, bir daha bizim birliyimizi nümayiş etdirir, gücümüzü artırır. Bu gün həm regionda, həm Avropada gedən proseslərdə Türkiyə və Azərbaycan artıq ciddi amil kimi mövcuddur."

***Türkiyənin Baş naziri Əhməd Davudoğlunun Azərbaycana rəsmi səfəri zamanı bəyanatından (3 dekabr 2015-ci il)***

***

"Güclü iqtisadiyyat yaratmışıq, güclü sosial siyasət aparılır, güclü ordu qurmuşuq. Hətta beynəlxalq hesablamalarda Azərbaycan Ordusu dünya miqyasında 40 ən qüdrətli ordu sırasındadır. Mən bunu dəfələrlə bəyan etmişəm ki, bizim ordumuz güclü ordular sırasındadır. Mənim təhlilimi beynəlxalq qurumlar da təsdiqləyir."

***Ölkə gənclərinin bir qrupu ilə görüşdə nitqindən (29 yanvar 2016)***

***

“Aprel döyüşləri, - mən bunu artıq demişəm, - tarixdə bizim böyük hərbi qələbəmiz kimi qalacaqdır. Azərbaycan Ordusu böyük qəhrəmanlıq göstərib, işğal edilmiş torpaqların bir hissəsini, daha dəqiq desəm, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib və strateji yüksəklikləri öz nəzarəti altına qaytarıbdır.”

***Hərbçilər üçün inşa edilmiş yeni yaşayış binasının açılışı zamanı nitqdən***
***(24 iyun 2016)***

***

“2016-cı ilin aprel döyüşləri bunu əyani şəkildə düşmənə və bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu nəyə qadirdir. Döyüş meydanında bizim şanlı tarixi qələbəmiz əlbəttə ki, məsələnin ədalətli həlli üçün də yeni imkanlar yaradır və yaradacaqdır.”

***Yeni Azərbaycan Partiyasının VI qurultayında nitqindən***
***(8 fevral 2018-ci il)***

***

“Gündən-günə artan maliyyə resurslarımız, ilk növbədə, ölkə qarşısında duran əsas vəzifələrin həllinə yönələcək və ordu quruculuğu bu məsələdə prioritetdir.”

***Yeni Azərbaycan Partiyasının VI qurultayında nitqindən***
***(8 fevral 2018-ci il)***

***

“Ordu quruculuğu bu gün də bizim üçün prioritet məsələdir, sabah da prioritet məsələ olacaq. Biz son illər ərzində güclü hərbi potensial yarada bilmişik, o potensial ki, bu gün Azərbaycan Ordusunu dünya miqyasında güclü ordular sırasına daxil edibdir. Bunu beynəlxalq məsələ ilə məşğul olan bütün qurumlar və reytinqlər təsdiqləyir. Biz bundan sonra da ən müasir silah, sursat, texnika alacağıq ki, daim hərbi üstünlük təmin edilsin, necə ki, bu gün bu, təmin edilir.”

***Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında yekun nitqindən***
***(9 aprel 2018)***

***

“Ordumuzun gücünü düşmən də gördü. Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsini işğalçılardan azad etdi, minlərlə hektar torpağa biz nəzarət edirik. Bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, insanlar qayıdır, yeni qəsəbə salınıbdır. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq.”

***Andiçmə mərasimində nitqindən***
***(18 aprel 2018)***

***

“Biz güclü ordu qurmuşuq. Orduların gücünü müəyyən edən aparıcı reytinq agentlikləri Azərbaycan Ordusunu 50 güclü ordu sırasında görürlər. Biz bunu bilirik və bizim hərbi gücümüz gündən-günə artır. İki il bundan əvvəl Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir və o torpaqlarda – bizim doğma torpaqlarımızda bu gün Azərbaycan bayrağı dalğalanır. Əminəm ki, gün gələcək və Azərbaycan bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada və Xankəndidə qaldırılacaqdır.”

***Ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən***
***(10 may 2018)***

***

"Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Ordusu ən müasir silahlar, texnika ilə təchiz edilmişdir. Biz son illər ərzində Azərbaycan Ordusunu böyük dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın demək olar ki, bütün növləri, yaxud da ki, əksər növləri Naxçıvana göndərilir. Naxçıvanın coğrafi yerləşməsinə, relyefinə uyğun şəkildə bütün müasir texnikalar göndərilir. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni, təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir."

***Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında çıxışından***
***(16 may 2018)***

***

"Ordumuzun döyüş qabiliyyəti çox yüksək səviyyədədir və bunu yaxın tarix göstərib. 2016-cı ilin Aprel döyüşləri və qazandığımız böyük qələbə, 2018-ci ilin mayında Naxçıvan əməliyyatı və minlərlə hektar torpağın işğalçılardan azad edilməsi - bütün bunlar Azərbaycan Ordusunun döyüş qabiliyyətini göstərir. Qarşı tərəf bunu bilir və onların bu gün beynəlxalq təşkilatlara müraciəti, əslində, öz məğlubiyyətlərinin etirafıdır."

***Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında nitqindən***
***(8 iyul 2018)***

***

"Nuru paşanın, Qafqaz İslam Ordusunun, bütün qardaşlarımızın qəhrəmanlığı, dostluğu, qardaşlığı unudulmazdır, əbədidir, bizim qəlbimizdə daim yaşayacaqdır.

Tarixi zəfərdən sonra qəhrəman əsgərlərimiz Bakı küçələrinə zəfər yürüşünə çıxmışlar. Minlərlə Bakı sakini onları alqışlayırdı, onları öpürdü, qucaqlayırdı, bağrına basırdı. Bu, bir birlik bayramı idi."

***Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda çıxışından***
***(15 sentyabr 2018)***

***

"Biz güclü ordu qurmuşuq. Bu il Bakıda iki hərbi parad keçirilmişdir - həm ordumuzun, həm də Bakının işğaldan azad edilməsinin 100 illiklərinə həsr edilmiş paradlar. Paradlarda nümayiş etdirilən imkanlarımız hesab edirəm ki, çox təsirlidir. Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və bu, reallıqdır."

***Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda nitqindən***
***(21 sentyabr 2018)***

***

"Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir. Eyni zamanda, bu il Bakıda iki dəfə möhtəşəm hərbi parad keçirilmişdir və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilmişdir. Bu gün Azərbaycan Ordusu ən müasir silahlarla, texnika ilə təchiz edilib, bu proses davam etdirilir."

***Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında nitqindən***
***(9 oktyabr 2018)***

***

"Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir. Mən Lələtəpədə olanda, orada Azərbaycan bayrağını görəndə qürur hissi keçirirəm. Hər biz Azərbaycan vətəndaşı qürur hissi keçirir. Bizim əsgər və zabitlərimiz əsl qəhrəmanlıq göstərmişlər. Aprel döyüşləri tarixi hadisədir. Bu döyüşlər Ermənistanın uzun illər ərzində yaratdığı mifi tamamilə darmadağın etdi. Yəni, ermənilər elə bir rəy formalaşdırmağa çalışırdılar ki, guya onların ordusu güclüdür və

yenilməzdir. Azərbaycan əsgəri, zabiti göstərdi ki, kimin ordusu güclüdür, kimin ordusu yenilməzdir. O mif tamamilə dağıdıldı. Aprel döyüşləri milli ruhumuzu yüksəltdi, zirvələrə qaldırdı. Ona görə bu hadisə bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq."

***Real TV-yə müsahibəsindən***
***(12 fevral 2019)***

***

"Ordumuz üçün nə lazımdırsa, biz onu edirik və edəcəyik. Ötən il uğurlu Naxçıvan əməliyyatı keçirilmişdir. Bu əməliyyat nəticəsində biz strateji yüksəkliklərə sahib olmuşuq. Bu yüksəkliklər imkan verir ki, biz çox böyük əraziyə nəzarət edək. Uğurlu Naxçıvan əməliyyatı bir daha göstərdi ki, ordumuz peşəkardır, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir."

***Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində nitqindən***
***(02 aprel 2019)***

***

"Ölkəmizin hərbi qüdrəti güclənir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi, Naxçıvan Muxtar Respublikasında keçirilən əməliyyat nəticəsində böyük torpaq sahəsi işğalçılardan azad edilmişdir. Hərbi qüdrətimizin artırılması nəticəsində bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərdə güclü ordular sırasındadır."

***28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda nitqindən***
***(27 may 2019)***

***

"Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir."

***Təhlükəsizlik Şurasının iclasında nitqindən***
***(27 sentyabr 2020)***

***

"Bu gün Azərbaycan Ordusu güclü ordudur. Bütün beynəlxalq reytinqlərə görə o, dünyanın ən güclü 50 ordusunun siyahısına daxildir. Ehtiyatda olanları, döyüşə hazır olan digər hərbiləşdirilmiş dəstələri nəzərə almasaq, bizim nizami orduda 100 min döyüşçümüz var. Bu gün Azərbaycan Ordusu bizim əraziləri azad edir."

***Rusiyanın "Pervıy Kanal" televiziyasına müsahibəsindən***
***(06 oktyabr 2020)***

***

"İndiki döyüşlər zamanı 300-ə yaxın Ermənistan tankı ya məhv edilib, ya da hərbi qənimət kimi götürülüb. Haradandır bunlarda bu qədər pul? Kasıb bir ölkədir, nə pulu, nə imkanı var. Müftə alıbdır. Altı S-300 hava hücumuna qarşı zenit-raket kompleksi məhv edilibdir. Onların qiyməti bəllidir. Haradandır bu? "Tor", "OSA" zenit-raket kompleksləri, pilotsuz uçuş aparatları, təyyarələr, hansılar ki, artıq Azərbaycan tərəfindən məhv edilib. "Toçka-U", "SCUD", haradandır? Pulsuz verilib və verilir. Biz də buna səssiz qala bilmərik. Hər kəs bunu bilsin. Biz təkbaşına vuruşuruq, təkbaşına!"

***Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində keçirilən operativ müşavirədə nitqindən***
***(25 oktyabr 2020***

***

"Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq."

***

***Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında nitqindən***
***(10 dekabr 2020)***

***

“Bizim şanlı Ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir. Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik. Mən dəfələrlə demişdim ki, o cümlədən hərbçilərlə görüşlərimdə, çoxsaylı görüşlərimdə, əgər düşmən torpaqlarımızdan öz xoşu ilə çıxmasa, məcbur edəcəyik onları, qovacağıq torpaqlarımızdan, güc amili öz rolunu oynayacaqdır və belə də oldu, 44 günlük müharibənin hər bir günü zəfər günü idi.”

***Şuşa şəhərində hərbçilərlə görüşdə nitqindən***
***(15 yanvar 2021)***

***

“İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq.”

“Burada nümayiş etdirilən texnika məhv edilmiş və qənimət götürülmüş düşmən texnikasının kiçik bir hissəsini təşkil edir. 125 artilleriya topu, 366 tank, 7 “S-300” zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksləri, 522 yük avtomaşını və digər texnikalar məhv edilmişdir və qənimət kimi götürülmüşdür.”

“Şuşa əməliyyatından sonra Ermənistan diz çökdü. Şuşa əməliyyatı ayrıca bir dastandır, o haqda hələ çox danışılacaqdır. Ancaq Şuşaya gedən hər bir adam o sıldırım qayaları görərkən təsəvvür edə bilmir ki, o alınmaz qala necə alındı. Ancaq peşəkarlıq, rəşadət, qəhrəmanlıq və milli ruh hesabına biz Şuşanı azad etdik və düşmən diz çökdü, qabağımızda başını əydi, ağ bayraq qaldırdı, öz məğlubiyyətini etiraf etdi, noyabrın 10-da kapitulyasiya aktına imza atdı və biz bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonlarının işğal altında olan hissəsini də geri aldıq.2

***Bakıda Hərbi Qənimətlər Parkının açılışında nitqndəni***
***(12 aprel 2021)***

***

“Ordumuzun gücləndirilməsi, silah, texnika, təchizat məsələləri də əsas amillərdəndir. Son illərdə ən çağdaş texnologiyaya əsaslanan silahlar alındı və Ordumuzun peşəkarlığı artdı. Çünki silahlar, texnologiya, əlbəttə, bir çox məsələləri həll edir. Ancaq yerində torpağı alan, bayrağı sancan əsgərdir. Əgər o, döyüşə həvəslə getmirsə, heç bir silah sənə kömək edə bilməz. Bu amillər bizi Qələbəyə apardı. Bizim bütün hərbi strategiyamız və silahların alınması bir məqsədə xidmət edirdi – biz bu torpaqları necə az itkilərlə azad edək və belə də oldu.”

***“CNN Türk” televiziya kanalına müsahibəsindən***
***(14 avqust 2021)***

***

“Mən işğal dövründə dəfələrlə deyirdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Ermənistan rəhbərlərinə dəfələrlə deyirdim ki, hələ gec deyil, öz xoşları ilə bizim torpaqlarımızdan çıxsınlar, rədd olsunlar. Ancaq əfsuslar olsun ki, onların uzun illər ərzində yaydıqları yalana özləri də inanmağa başlamışdılar. Dünyaya Azərbaycan xalqı haqqında, Azərbaycan Ordusu haqqında həqiqətə uyğun olmayan böhtan və uydurma xarakterli məlumatlar yayırdılar. İkinci Qarabağ müharibəsi göstərdi kim-kimdir. İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun,

Azərbaycan xalqının əyilməz iradəsini göstərdi. Ermənistan ordusu bu gün artıq məğlub edilmiş ordudur. Azərbaycan Ordusu isə müzəffər ordudur!"

"44 günlük İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun tamamilə darmadağın edilməsinə gətirib çıxardı. Bu gün Ermənistan ordusu yoxdur. Mən dəfələrlə demişəm, bax, burada - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin bir rayonu olan Hadrutda, Xocavənd rayonunun qəsəbəsi olan Hadrutda bunu bir daha deyə bilərəm ki, bu gün Ermənistan ordusu yoxdur. Əgər Ermənistan yenidən bizim üçün təhlükə mənbəyi olmağa cəhd edərsə, onların axırı İkinci Qarabağ müharibəsindəki kimi olacaqdır. Biz heç vaxt imkan verə bilmərik ki, xalqımıza, dövlətimizə, ərazi bütövlüyümüzə hər hansı bir təhdid yaradılsın."

***Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfəri zamanı çıxışından***
***(24 dekabr 2021)***

***

"Hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini,- əgər bir daha baş qaldırsa, - əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır."

***Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında çıxışından***
***(22 aprel 2022)***

***

"Ulu Öndərin ordu quruculuğu sahəsində gördüyü işlərin nəticəsində Azərbaycan Ordusu demək olar ki, sıfırdan yaranmağa başlamışdır və illər keçdikcə ordumuz öz gücünü artırmışdır. Bunu biz işğal dövründə müxtəlif zamanlarda görmüşük, o cümlədən Aprel döyüşlərində. Aprel döyüşləri işğalçılar üçün bir mesaj, bir siqnal idi ki, işğala son qoyun, torpaqlarımızdan çıxın, rədd olun. Bizim Aprel döyüşlərindəki qələbəmizdə xüsusi təyinatlıların çox böyük xidmətləri olmuşdur."

"Mən Prezident kimi öz səlahiyyətlərimi icra etməyə başlayan zaman demişdim ki, mənim üçün Prezident və Ali Baş Komandan kimi birinci vəzifə ordu quruculuğudur. Çünki torpaqlarımız işğal altındadır, danışıqlara ümidlərimiz tükənib və güc yolu ilə biz bu məsələni həll etməliyik. Bunu illər boyu bəyan edirdim, çalışırdım Ermənistan rəhbərliyi, nəhayət anlasın ki, Azərbaycan xalqı və Azərbaycan rəhbərliyi, Azərbaycan Ordusu bu işğalla heç vaxt barışmayacaq. Bunu rəsmən bəyan edirdim ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı düşmənin əlindən alacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Belə də oldu."

"Şuşanın azad olunması müharibənin ən parlaq səhifəsidir. Bu gün dünyanın aparıcı hərbi məktəblərində Şuşa əməliyyatı, Hadrut əməliyyatı, digər əməliyyatlar öyrənilir."

***Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin "N" saylı hərbi hissəsində çıxışından***
***(30 aprel 2022)***

***

"Bizim şanlı müharibəmiz indi müxtəlif ölkələrin ali məktəblərinin hərbi dərsliklərindədir və bunu bir çox hərbi ekspertlər qeyd edirlər. Çox çətin relyefi olan ərazini, Şuşa kimi alınmaz qalanı cəmi 44 gün ərzində azad etmək ancaq Azərbaycan əsgərinin ruhu, gücü hesabına mümkün olmuşdur. Biz bütün dünyaya göstərdik ki, həm ruhən, həm fiziki cəhətdən, həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də Vətənə olan sevgi və məhəbbət nöqteyi-nəzərindən böyük xalqıq. Biz bu gün qalib insanlar kimi yaşayırıq. Bütün dünya azərbaycanlıları yaşadıqları yerlərdə başlarını dik tutub qalib xalqın nümayəndələri kimi yaşayırlar."

***Kəlbəcər rayonunda hərbi hissənin açılışında nitqindən***
***(27 iyun 2022)***

***

"Biz 44 gün ərzində yalnız irəli gedirdik. Şuşaya qədər bir çox şəhər və kəndlərimiz, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Suqovuşan, 300-ə yaxın kənd, Laçının və Kəlbəcərin bir hissəsi döyüş meydanında azad edilmişdir. Şuşanın azad edilməsi Ermənistan ordusunun belini qırdı. Faktiki olaraq, müharibənin ilk günlərindən Ermənistan təşviş içində idi, bəzi hallarda panikaya qapılırdı, isterikaya qapılırdı. Məhz buna görə də Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur, onların özlərinin etirafıdır. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın yüksək mənəvi keyfiyyətlərindən xəbər verir. Hərbçilərimiz ölümə gedirdilər, "öldü var, döndü yoxdur" şüarı ilə döyüşlərə gedirdilər, bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın qəhrəmanlığıdır və onu göstərir ki, elə gözəl gənc nəsil yetişdi ki, onların bir çoxları Qarabağı, Zəngəzuru heç vaxt görməmişdilər, televiziyalarda, fotoşəkillərdə, valideynlərin, böyüklərin söhbətlərində bu müqəddəs torpağa yaxınlaşırdılar. Ancaq onlar gəldilər və xalqımızın tarixi missiyasını şərəflə yerinə yetirdilər."

***Zəfər Günü münasibətilə Şuşada təşkil olunan tədbirdə çıxışından***
***(08 noyabr 2022)***

***

"Bu gün Azərbaycan Ordusu artıq özünü təsdiqləyib, cəmi 44 gün ərzində düşməni tarixi torpaqlarımızdan qovub, tarixi ədaləti bərpa edib, xalqımızın qürurunu bərpa edib və bu gün Azərbaycan dövlətinin təhlükəsizliyinin qarantıdır. Biz ordu quruculuğuna həmişə çox böyük diqqət göstərmişik. Bəzi işlər ictimai diqqətə də təqdim edilirdi, bəzi işləri biz daha çox konfidensial, yəni, məxfi şəraitdə aparırdıq, bu da başadüşüləndir. Amma nəticə etibarilə elə bir qəhrəmanlıq, elə bir peşəkarlıq göstərdik ki, bu, bu gün bir çoxları üçün nümunədir."

***Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə keçirilən tədbirdə çıxışından***
***(21 noyabr 2022)***

***

"Biz dərk etdik ki, əgər güclü Ordumuz olmasa, gənc nəsli təkcə torpaqları uğrunda deyil, həm də öz şərəfləri uğrunda mübarizə aparmaları üçün hazırlamasaq həmişə işğal altında olacağıq, həmişə şikayət edəcəyik. Biz şikayətlənməkdən bezmişdik, indi qoy başqaları bizdən şikayət etsin. Azərbaycanda bu, belə oldu. Düşünürəm ki, Azərbaycanın nümunəsi dəyərlidir. Bilirəm ki, bizim döyüşləri necə aparmağımız, xüsusilə Şuşanın azad edilməsi beynəlxalq hərbi akademiyalarda qiymətləndirilir. Siz Şuşaya yaxınlaşanda yəqin gördünüz ki, qayalıqdır, sadəcə qaladır. Onu fəth etmək çox çətindir. Şuşa Azərbaycanda hakimiyyətdə olan və ya hakimiyyətə gəlməyə çalışan bir çoxlarının xəyanəti nəticəsində işğal olunmuşdu. Ona görə də Şuşanın azad edilməsi həqiqətən də bizim ruhumuzun nümayişidir."

***Şuşada "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda keçirilən beynəlxalq konfransda söhbətindən***
***(03 may 2023)***

***

"Azərbaycan Ordusu dünyanın ən güclü ordularının sırasındadır - həm təchizat, həm döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Bizim ordumuz döyüşüb, bizim ordumuz öz gücünü paradda yox, döyüş meydanında göstərib. 44 gün ərzində bir nəfər də olsun geri addım atmayıb, bir nəfər də olsun fərari olmayıb. Bizim ordumuz budur. Bizim xalqımız budur. Çünki ordu xalqın bir hissəsidir. Orduda xidmət edən xalqın övladlarıdır, bizim yetişdirdiyimiz uşaqlardır. Biz belə gözəl uşaqlar yetişdirmişik ki, onlar düşməni burada, Şuşada əliyalın məğlub edib, düşməni torpaqlarımızdan çıxarıb, bizim qürur rəmzimiz olan bayrağımızı, bax, bu binaya və azad edilmiş bütün başqa torpaqlarda qaldırıb. Ordu quruculuğu bu gün lazımi səviyyədə təmin edilir və bundan sonra da təmin ediləcəkdir."

“İkinci Qarabağ müharibəsindəki Qələbə isə bizim tarixi uğurumuzdur, tarixi Zəfərimizdir. Bu Zəfər Azərbaycan durduqca qalacaq, bizim qəlbimizdə, yaddaşımızda, kitablarda, əsərlərdə. Bu, qəhrəmanlıq dastanıdır. Bu, misli görünməmiş qəhrəmanlıqdır. Ermənistan 30 il ərzində öz himayədarlarının dəstəyi ilə bu torpaqları bizə verməmək üçün gecə-gündüz əlləşirdi. Həm coğrafi relyefə arxalanırdı, 5, 6, bəzən 7 xətt müdafiə istehkam qurğularına arxalanırdı və himayədarlarına arxalanırdı. Hesab edirdi ki, biz bu vəziyyətlə barışacağıq. Amma mən deyirdim ki, yox, barışmayacağıq. Deyirdim bunu, gərək məni eşidəydilər. Deyirdim ki, gec-tez gələcəyik, bir təpiklə düşməni qovacağıq, öz Bayrağımızı qaldıracağıq və öz doğma torpaqlarımızda yaşayacağıq. İkinci Qarabağ müharibəsi bütün dünyaya Azərbaycan xalqının əyilməz ruhunu göstərdi. Bizi qabağa aparan məhz bu idi.”

***Xalqa müraciətindən, Şuşa.***
***(10 may 2023)***

***

“Güclü ordu qurmuşuq. Bu ordu düşməni 44 gün ərzində darmadağın edib, onları diz çökdürüb və torpaqlarımızdan qovub. Gözəl gənc nəsil yetişdirdik – vətənpərvər, tərbiyəli, milli ruhda tərbiyə almış gənc nəsil. Həmin bu gənclər bizim torpaqlarımızı azad ediblər. Laçını, Kəlbəcəri, o vaxt işğal altında olan digər torpaqları görməyən, bu bölgələrdən olan gənclər ölümə getməyə hazır idilər, ölümə də gedirdilər. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların qəhrəmanlığını heç vaxt unutmayacağıq. Onların qəhrəmanlığı, şücaəti sayəsində biz, bax, bu gün burada oturmuşuq və bu gün bu torpaqlarda həyat canlanır.”

***Laçın şəhərinə qayıdan əhali ilə görüşündə çıxışından***
***(28 may 2023)***

***

“Müharibədən sonra ordu quruculuğu üçün əlavə addımlar atılır və buna böyük ehtiyac var. Çünki dünyada geosiyasi vəziyyət gərginləşir, bölgəmizdə yeni təhdidlər mövcuddur, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bütün bunları nəzərə alaraq, Ordumuzun daha da gücləndirilməsi vəzifəsi bir nömrəli vəzifə olaraq qalır. Buna nail olmaq üçün təbii ki, kompleks tədbirlər görülür. Vətən müharibəsindən sonra yeni silahların alınması prosesi davam edir və artıq bir çox kontraktlar imzalanmışdır - həm yeni pilotsuz uçuş aparatlarının ölkəmizə gətirilməsi, həm uzaqmənzilli raketlərin ölkəmizə gətirilməsi, o raketlər ki, böyük dağıdıcı qüvvəyə və yüksək dəqiqliyə malikdir.”

“ Mən demişəm və müharibə dövründə demişəm ki, biz düşməndən qisasımızı döyüş meydanında alacağıq, şəhidlərimizin qanını döyüş meydanında alacağıq və belə də oldu. Azərbaycan Ordusu mülki əhaliyə qarşı müharibə aparmamışdır, bunu hər kəs bilir və görür. Ermənistandan fərqli olaraq onların şəhərlərini “İsgəndər”, “Toçka” və “Elbrus” raketləri ilə dağıtmamışıq. Azərbaycan Ordusu yüksək mənəvi xüsusiyyətlərə malikdir, Ali Baş Komandanın əmrlərini tam icra edir və icra edəcək. Ona görə bizi qisasçılıqda ittiham edənlər qoy gedib güzgüyə baxsınlar. Biz qisas yox, ədalət tələb edirik. Biz tələb edirik ki, haqq-ədalət qorunsun. Biz tələb edirik ki, bizim daxili işlərimizə heç kim müdaxilə etməsin. Biz tələb edirik ki, bütün ölkələr sözdə yox, əməldə bizim ərazi bütövlüyümüzə hörmətlə yanaşsın və belə olan halda biz də onların ərazi bütövlüyünə hörmətlə yanaşacağıq. Əks təqdirdə bizim də addımlarımız adekvat olacaq”.

***Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində etdiyi çıxışından***
***(23 iyun 2023)***

***

“Bundan sonrakı illərdə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, bu sahədə islahatların dərinləşdirilməsi, yeni silahlı birləşmələrin yaradılması və təkmilləşdirilməsi istiqamətində, o cümlədən ən müasir silahların, texnikaların alınması istiqamətində işlər plan üzrə gedir. İkinci Qarabağ müharibəsindən sonra Silahlı Qüvvələrimizdə aparılan islahatlar hələ başa çatmayıb, o cümlədən struktur islahatları. Biz öz Silahlı Qüvvələrimizi ən qabaqcıl orduların səviyyəsinə çatdırmalıyıq, yəni, təbii ki, Azərbaycan miqyasını nəzərə almaq şərtilə. Struktur islahatları, idarəetmə və özünü müdafiəetmə qabiliyyəti nöqteyi-nəzərindən biz elə güc yaradırıq ki, yerləşdiyimiz coğrafiyada özümüzü tam əmin hiss edə bilək”.

***2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə çıxışından***
***(11 iyul 2023)***

***

“Bu reallıq bir də onu göstərir ki, bizim ordu quruculuğu ilə bağlı apardığımız siyasət yeganə düzgün siyasətdir. Bu siyasətin əvvəlində böyük işlər görüldü. Son 15 il ərzində ordu quruculuğu prosesi sürətlə getmişdir. Bəzi hallarda bizi tənqid edirdilər ki, siz nəyə görə bu məsələlərə bu qədər vəsait xərcləyirsiniz. Ancaq həyat göstərdi ki, biz düzgün siyasət aparmışıq. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Təchizat, silah-sursat, texnika, döyüş qabiliyyəti baxımından ordumuz güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da təmin edirik. Ən müasir silahlar alınır və bundan sonra da alınacaq”.

“Ordumuzun gücünü düşmən də gördü. Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsini işğalçılardan azad etdi, minlərlə hektar torpağa biz nəzarət edirik. Bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, insanlar qayıdır, yeni qəsəbə salınıbdır. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir”.

***Andiçmə mərasimində nitqindən***
***(14 fevral 2024)***

***

“Silahlı Qüvvələrimizdə aparılan islahatlar yaxşı nəticələr vermişdir. Biz müdafiə imkanlarımızı müasirləşdiririk və bu gün yüksək səviyyəli peşəkarlıq nümayiş etdiririk”.

***NATO-nun baş katibi ilə görüşdən sonra mətbuat üçün bəyanatından***
***(17 mart 2024)***

***

“...vəzifə nömrə bir - hərbi gücümüzün artırılması və biz bunu edirik. İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq, yeni silahlı birləşmələr yaradıldı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı. Yeni Xüsusi Təyinatlı Qüvvələr, Komando qüvvələri yaradıldı və onların da say tərkibi ildən-ilə artır və artacaq. Digər xüsusi təyinatlı silahlı birləşmələr yaradılmışdır və gecə-gündüz təlim işləri aparılır. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir”.

***Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqindən***
***(23 sentyabr 2024)***